# Laçın dəhlizinin hüquqi rejimi yenidən nəzərdən keçirilməlidir

**Azərbaycanın əsas hissəsini Naxçıvan ekslavı ilə birləşdirən quru yolla Laçın dəhlizini əlaqələndirmək ideyası İkinci Qarabağ müharibəsindən də əvvəl meydana gəlmişdi. O vaxt nəzərdə tutulurdu ki, Qarabağın Ermənistanla əlaqəsini təmin edən kommunikasiya xətti, sonralar Zəngəzur koridoru adını alacaq dəhliz və keçmiş Dağlıq Qarabağın statusu məsələsi bir-biri ilə üzvi surətdə vahid kontekstdə nəzərdən keçirilməli, Azərbaycan və Ermənistan arasında davamlı sülhün əsasında dayana biləcək "qarşılıqlı asılılıq" konsepsiyasını formalaşdırmalıdır. Başqa sözlə, əgər Zəngəzur dəhlizi yoxdursa, o zaman Laçın dəhlizi də olmayacaq.**




Bu incə tarazlaşdırma diplomatiyasının bəzi elementləri bugünkü Azərbaycan–Ermənistan diskursunda hələ də qalır: bir istisna ilə – Azərbaycanın Qarabağ regionunda ermənilərin məskunlaşdığı əraziyə münasibətdə status müzakirələri artıq tarixə qovuşub. İndi iki dəhlizin hüquqi rejimlərinin müqayisəsindən və Azərbaycanın onları eyniləşdirmək tələblərindən söhbət gedir. Ermənistan, təbii ki, bununla razılaşmır. Deyir ki, 2020-ci il 10 noyabr tarixli üçtərəfli razılaşmada bir dəhlizdən söhbət gedir, Laçın dəhlizinin rejimi isə çox nadir bir rejimdir və Ermənistan ərazisində təkrar oluna bilməz.

Laçın dəhlizinin hüquqi rejimi ilə bağlı dəqiq detallarda olduğu kimi, Bakı və İrəvan arasında dəhlizin uzunmüddətli funksiyası ilə bağlı da fikir ayrılığı var. Azərbaycanda ona müvəqqəti sxem kimi baxırlar, iki ölkə arasında münasibətlər normallaşandan sonra, bu, hətta, indiki "müstəsna statusunu" itirə bilər. Diqqətlə ölçülüb-biçilmiş addımlar sayəsində və uzaq gələcəyi nəzərə almaqla, Bakı Laçın dəhlizinin nəzəri ekstraterritoriallığı ilə bağlı belə ehtimaları minimuma endirməyə nail olub.

Üçtərəfli Bəyanatın 6-cı maddəsində deyilir ki, Rusiya sülhməramlıları 5 kilometrlik eni olan Laçın dəhlizinə nəzarət edəcək, Azərbaycan isə vətəndaşların, malların və nəqliyyat vasitələrinin ikitərəfli hərəkətinin təhlükəsizliyinə cavabdehdir. Nəzərə alsaq ki, 2020-ci ilə qədər olan danışıqlarda Ermənistan bütün Laçın rayonunun dəhliz olmasını təklif edirdi və sonradan dəhlizin eni azaldıldı, İrəvan tərəfi marşruta nəzarət imkanlarını itirdi, 10 noyabr bəyanatında təsbit olunan müddəa həmin məqamda Azərbaycan üçün ideal variant idi.

**(ardı 8-ci səhifədə)**

# Laçın dəhlizinin hüquqi rejimi yenidən nəzərdən keçirilməlidir

**(əvvəli 1-ci səhifədə)**

10 noyabr razılaşması hazırda Laçın dəhlizi boyunca fəaliyyət göstərən yeni marşrutun yaradılmasını da nəzərdə tuturdu. Bu, dəhlizin köhnə məntiqinin dağılmasında mühüm rol oynayıb. Təsadüfi deyil ki, Azərbaycan 26 avqustda Laçın şəhərinə nəzarəti bərpa edəndən sonra "Laçın dəhlizi" termini yox, "Yeni Laçın yolu" termini işlənir.

Prinsipial məsələ odur ki, "Yeni Laçın yolu" artıq Qarabağ ermənilərinin fövqəladə təhlükəsizlik təminatından çox, hərəkəti asanlaşdıran kommunikasiya keçidi kimi qavranılmağa başlanılıb. Qarabağ ermənilərinin bütün konstitusion vətəndaş hüquqları ilə birlikdə Azərbaycan cəmiyyətinə inteqrasiyası üçün Bakının həyata keçirdiyi siyasət nəticəsində həmin marşrutun müstəsnalığı yavaş-yavaş aradan çıxır.

Maraqlıdır ki, Rusiya sülhməramlı kontingentinin Laçın dəhlizi boyunca yerləşməsinə baxmayaraq, Bakı heç vaxt ekstraterritorial narahatçılıq ifadə etməyib və hər zaman suverenliyinin məhdudlaşmaması və dəhlizə özünün də nəzarət etməsi fikrini səsləndirib.

Ermənistan Zəngəzur keçidinin "dəhliz" məntiqini təkidlə rədd edir və razılaşmanın 9-cu maddəsindən– dəhliz boyu təhlükəsizliyin Rusiya Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidməti orqanları tərəfindən təmin edilməsini nəzərdə tutan müddəadan ciddi narahatlıq keçirir.

Burada Moskvanın rolu çox incədir. Zəngəzur dəhlizinə gəlincə, ilk baxışdan adama elə gəlir ki, Rusiya müəyyən dərəcədə Bakını müdafiə edir. Amma Rusiya öz sülhməramlılarının 2025-ci ildən sonra da Qarabağda saxlamasında maraqlı olduğuna görə, Kreml region ermənilərinin Azərbaycana inteqrasiyası ilə bağlı addımlarını tələsik və arzuolunmaz hesab edə bilər.

Azərbaycan və Ermənistan oktyabrın 6-da Praqada BMT Nizamnaməsi və 1991-ci il Alma-Ata Deklarasiyasına uyğun olaraq, qarşılıqlı şəkildə ərazi bütövlüklərini tanıdıqlarını bəyan etdilər. Bununla dəqiq parametrlərlə nəyin ehtiva olunmasına və "ərazi bütövlüyü" dedikdə nəyin nəzərdə tutulmasına dair tərəflərdə fərqli baxışlar ola bilər. Danışıqların Brüssel istiqaməti Zəngəzur dəhlizinə tətbiq olunan rejimlə bağlı müəyyən nailiyyətlər əldə edib. O əsasda ki, hər bir dövlət öz sərhədinə nəzarət etməli, marşrutun onun ərazisindən keçən sahəsi ilə bağlı lazımı yurisdiksiyanı həyata keçirməlidir. Önəmli olan odur ki, əlaqə mümkün qədər maneəsiz olmalıdır.

Azərbaycan Zəngəzur dəhlizinin rejimini Laçın dəhlizinin rejimi ilə əlaqələndirmək və Laçın dəhlizinin əvvəlki müstəsna statusunu praktiki əsasda məhdudlaşdırmaqla son illər ərzində öz ərazi bütövlüyünü xeyli möhkəmləndirib. Ermənistanı Qarabağla birləşdirən dəhlizin hüquqi rejiminin dəyişdirilməsi Rusiyanın da razı salınmasını tələb edəcək. Əgər Bakı və Yerevan Zəngəzur dəhlizi ilə bağlı Laçın dəhlizi üçün də nəticələrə səbəb olacaq razılaşma əldə etsələr, Rusiyanın yeni reallıqla barışmaqdan başqa seçimi olmayacaq.

***A.ORXAN, siyasi icmalçı***

Xalq qəzeti .- 2022.- 5 noyabr.- S.1;8.